

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 121 (21.273)

20 iyun 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Türkiyə Respublikasının ölkəmizdəki səfirliyində olub.

Dövlətimizin başçısı Türkiyə Respublikasının IX Prezidenti Süleyman Dəmirəlin vəfatı ilə əlaqədar başsağlığı verib.

Prezident İlham Əliyev səfirlikdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Türkiyənin IX Prezidenti Süleyman Dəmirəl ilə müxtəlif vaxtlarda keçirdiyi görüşləri əks etdirən fotolardan ibarət stendə baxıb.

Sonra dövlətimizin başçısı matəm kitabına ürək sözlərini yazıb.



# Kəngərli Rayon Elektrik Şəbəkəsinin inzibati binası və "Qıvraq" yarımstansiyası istifadəyə verilmişdir





Muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması istiqamətində kompleks tədbirlər görülür. Naxçıvanın zəngin enerji potensialından səmərəli istifadə olunur və müasir standartlara uyğun elektrik stansiyaları tikilib istifadəyə verilir. Hazırda muxtar respublikada elektrik enerjisi istehsalı ilə yanaşı, onun istehlakçılara etibarlı və dayanıqlı çatdırılması da diqqət mərkəzindədir. Müasir texniki imkanlara malik olan elektrik yarımstansiyalarının tikilməsi bu sahədə görülən işlərin tərkib hissəsidir.

İyunun 19-da Kəngərli Rayon Elektrik Şəbəkəsinin inzibati binası və "Qıvraq" yarımstansiyası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərov çıxış edərək demişdir ki, Kəngərli Rayon Elektrik Şəbəkəsi bu günədək uyğunlaşdırılmış binada fəaliyyət göstərirdi. Bu gün istifadəyə verilən müasir ikimərtəbəli inzibati binada hərtərəfli iş şəraiti yaradılıb. Yeni istifadəyə verilən 110/35/10 kilovoltluq "Qıvraq" yarımstansiyası müasir tələblərə cavab verir. Yasin Səfərov bundan sonra da elektrik təchizatının yaxşılaşdırılması istiqamətində səylə çalışacaqlarını bildirmiş, göstərilən diqqət və qayğıya görə muxtar respublikanın energetikləri adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kəngərli Rayon Elektrik Şəbəkəsinin yeni binasının və "Qıvraq" yarımstansiyasının istifadəyə verilməsi münasibətilə rayon sakinlərini təbrik edərək demişdir: Bu gün ölkəmizdə bütün sahələr inkişaf etdirilir, geniş yenidənqurma işləri aparılır, insanlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunur. Həyata keçirilən tədbirlər nəticəsində əhalinin yaşayış səviyyəsi yaxşılaşdırılır, bütün yaşayış məntəqələri abadlaşaraq müasirliyə qovuşur. Yaşayış məntəqələrinin və istehlakçıların elektrik enerjisi təminatının yaxşılaşdırılması, yeni elektrik verilişi xətlərinin çəkilməsi, müasir yarımstansiyaların qurulması da bu sahədə görülən işlərin tərkib hissəsi kimi diqqət mərkəzində saxlanılır.

Ali Məclisin Sədri demişdir: Naxçıvan Muxtar Respublikası uzun müddətdir blokada şəraitində yaşayır. Lakin ölkə Prezidenti cənab İlham Əliyevin ümummilli liderimizin siyasi xəttini uğurla davam etdirməsi nəticəsində Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında digər məsələlərlə yanaşı, enerji problemi də həll olunmuşdur. Muxtar respublika tamamilə qazlaşdırılmış, yeni elektrik stansiyaları tikilərək istifadəyə verilmişdir. Bu gün muxtar respublikada istehsal olunan elektrik enerjisi daxili tələbatı ödəməklə yanaşı, həm də ixrac potensialı yaradır. Vaxtilə muxtar respublikada elektrik enerjisinin paylanması fasilələrlə həyata keçirilirdi. Lakin bu gün bütün yaşayış məntəqələri fasiləsiz elektrik enerjisi ilə təmin olunmuşdur. Muxtar respublikada il ərzində istehsal olunan elektrik enerjisinin çox hissəsi bərpa olunan enerji mənbələri, yəni su elektrik stansiyaları hesabına ödənilir. Bu da elektroenergetikanın inkişafı sahəsində qazanılan ən mühüm nailiyyətlərdən biridir. Hazırda yeni Günəş elektrik stansiyası qurulur. Bütün bunlar muxtar respublikada gələcək tələbat da nəzərə alınmaqla uzun müddət elektrik enerjisi təminatının daxili istehsal hesabına ödənilməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri qeyd etmişdir ki, elektrik enerjisinin istehsalı ilə yanaşı, onun verilməsində də keyfiyyətin artırılması qarşıda duran əsas vəzifələrdəndir. Bu səbəbdən də muxtar respublikada müasir elektrik yarımstansiyalarının qurulması, yeni transformatorların quraşdırılması, yüksəkgərginlikli elektrik verilişi xətlərinin yeraltı kabellərlə əvəzlənməsi və yeni elektrik xətlərinin çəkilməsi diqqət mərkəzində saxlanılır. Qıvraq qəsəbəsində elektrik enerjisinin verilişi vaxtilə ərazidəki nasos stansiyaları üçün qurulan yarımstansiya vasitəsilə həyata keçirilirdi. Bu yarımstansiyadakı yüksəkgərginlikli transformatorlardan istifadə elektrik enerjisinin paylanmasında israfçılığa səbəb olurdu. Çünki rayonda elektrik enerjisinə olan maksimum tələbat 4-5 meqavatdır. Eyni zamanda ərazidə pərakəndə formada çəkilən elektrik xətləri də enerjinin paylanmasında itkilərə yol verirdi. Bütün bu amillər nəzərə alınaraq ərazidə yeni yarımstansiyanın qurulmasına başlandı, elektrik verilişi xətləri dəyişdirildi, 25 və 10 meqavatlıq 2 transformator quraşdırıldı. Bu da Kəngərli rayonunun ərazisində elektrik enerjisi verilişinin keyfiyyətlə həyata keçirilməsinə imkan verəcəkdir.



Ali Məclisin Sədri demişdir: Elektrik verilişi xətlərinin dayanıqlılığını təmin etmək və ərazilərdə transformatorları tələbata uyğun quraşdırmaq energetiklərin üzərinə düşən əsas vəzifələrdir. Vaxtilə muxtar respublikada təbii qazın olmaması elektrik enerjisinə olan tələbatı xeyli artırmışdı. Bütün gücün elektroenergetika sisteminin üzərinə düşməsi və yükün hesablanmaması tələbatdan artıq gücdə transformatorların quraşdırılmasına, elektrik enerjisi verilişi zamanı itkilərin yaranmasına səbəb olurdu. Lakin bu gün yaşayış məntəqələri təbii qazla tam təmin olunur. Ona görə də energetiklər elektrik verilişi xətlərinin yenilənməsini, yaşayış məntəqələrində tələbata uyğun transformatorların qoyulmasını diqqət mərkəzində saxlamalıdırlar.

"Muxtar respublikada elektroenergetika sahəsində ixtisaslı mütəxəssislər yetişmişdir. Bu gün Naxçıvanda transformatorların qoyulmasından tutmuş elektrik stansiyalarının qurulmasına qədər bütün işlər muxtar respublika energetikləri tərəfindən həyata keçirilir", – deyən Ali Məclisin Sədri yarımstansiyanın qurulmasında və muxtar respublikada elektroenergetika sisteminin inkişafında əməyi olan energetiklərə təşəkkürünü bildirmiş, onlara işlərində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri yarımstansiyanın qurulmasında fərqlənənləri hədiyyələrlə mükafatlandırmış, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, iki mərtəbədən ibarət olan binanın birinci mərtəbəsində "Qıvraq" elektrik yarımstansiyasının idarəetmə otağı, 35 və 10 kilovoltluq qapalı paylayıcı quruluşlar, əməliyyat briqadası üçün otaqlar, bufet və qazanxana vardır. İkinci mərtəbədə isə iclas zalı, iş, kompüter və nəzarətçi otaqları yerləşir. Binada yaradılan şərait fasiləsiz iş rejiminin təşkilinə imkan verir. Bu da rayon ərazisində elektrik enerjisi dövriyyəsinə mütəmadi nəzarət etmək və baş verə biləcək qəzaların vaxtında qarşısını almaq üçün mühüm əhəmiyyət daşıyır.

İdarəetmə otağında yeni texnoloji avadanlıqlar qurulmuş və avtomatik idarəetmə sistemi yaradılmışdır. 110/35/10 kilovoltluq "Qıvraq" yarımstansiyasında 4 ədəd Almaniya istehsalı olan 110 kilovoltluq eleqaz açarı, 8 ədəd Türkiyə istehsalı olan məsafədən idarə olunan 110 kilovoltluq ayırıcı, 6 boşaldıcı, 3 gərginlik və 6 cərəyan transformatoru, 5 ədəd 35 kilovoltluq, 12 ədəd 10 kilovoltluq elektrik verilişi xətləri üçün eleqaz açarlı müasir hücrələr quraşdırılmışdır.

Ardı 2-ci səhifədə





Yarımstansiyanın idarəetmə və rele mühafizəsi qurğuları ən müasir texnologiyalara əsaslanır. Quraşdırılan müasir avadanlıqlar elektrik enerjisinin keyfiyyətli ötürülməsinə və itkinin qarşısını almağa, eləcə də işçilərin təhlükəsizliyini təmin etməyə imkan verəcəkdir. 35 meqavoltamper gücündə olan yarımstansiya 5300 abonenti fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin edəcək, Kəngərli rayonunun enerji təminatını xeyli yaxşılaşdıracaqdır.

Ərazidə abadlıq işləri də görülmüş, binanın həyətində anbar və qaraj istifadəyə verilmişdir. Həmçinin Qıvraq qəsəbəsindəki hava elektrik verilişi xətlərinin yeri dəyişdirilərək daha təhlükəsiz əraziyə köçürülmüş, 20 kilometr məsafədə yeni elektrik verilişi xətləri çəkilmişdir.

Kəngərli Rayon Elektrik Şəbəkəsinə yeni xidməti avtomobil verilmişdir.



Yarımstansiya ilə tanışlıqdan sonra kollektivlə görüşən Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunması və enerjiyə qənaət edilməsi barədə tapşırıqlar vermişdir.

* * *

Kəngərli rayonunda aparılan abadlıq-quruculuq tədbirləri rayon mərkəzi Qıvraq qəsəbəsinin simasını tamamilə dəyişmişdir. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq Qıvraq qəsəbəsindəki avtomobil yolunun ətrafı abadlaşdırılacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ərazidə görüləcək işlərlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, hərəkətin təhlükəsizliyinin təmin olunması üçün yolun kənarlarında səkilər salınacaq, metal çəpər çəkiləcək, işıqlandırma sistemləri qurulacaq və ərazidə geniş abadlıq işləri görüləcəkdir. Bu işlər başa çatdırıldıqdan sonra piyadaların rahat və təhlükəsiz hərəkəti təmin olunacaqdır.

## Şərur rayonunun Xanlıqlar kəndindəki “İmamzadə” bərpa olunur



Naxçıvanda tarixi-mədəni irsin qorunub yaşadılması istiqamətində ardıcıl tədbirlər görülür, dini-mənəvi dəyərlərə hörmət və ehtiramla yanaşılır. Son illər muxtar respublika ərazisindəki dini-mədəni abidələr və ziyarətgahlar bərpa olunur, milli-mənəvi dəyərlərimizin yaşadılmasına və təbliğinə diqqət yetirilir. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq Şərur rayonunun Xanlıqlar kəndi ərazisindəki qədim “İmamzadə” türbəsi də bərpa olunur.

İyunun 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Xanlıqlar kəndinə gəlmiş, “İmamzadə”də aparılacaq bərpa işləri ilə tanış olmuşdur.

Məlumat verilmişdir ki, qədim “İmamzadə” türbəsi giriş və salondan ibarətdir. Aşağıdan kvadrat şəklində inşa edilən bu abidənin yuxarı hissəsi tağvari günbəzlə örtülmüşdür. Uzun müddət ibadət yeri və ziyarətgah kimi istifadə olunan türbədə bərpa işlərinin aparılmasına zərurət yaranmışdır.

Ali Məclisin Sədri bərpa işləri aparılarkən “İmamzadə”nin tarixi görkəminin və qədim memarlıq elementlərinin qorunub saxlanılması barədə tapşırıqlar vermişdir.

## Şərur rayonunun Xanlıqlar və Püsyan kəndlərində kollektor və selötürücü kanallar təmir olunur



Muxtar respublikada yaşayış məntəqələrinin və əkin sahələrinin sel sularından qorunması istiqamətində ardıcıl tədbirlər görülür. Çay yataqlarında və selovlarda sahilbərkitmə işlərinin aparılması, sel sularının axıdılması üçün yeni kollektor və kanalların tikilməsi bu mənada mühüm əhəmiyyətə malikdir. Hazırda Şərur rayonunun Xanlıqlar və Püsyan kəndlərindəki kollektor və selötürücü kanallar yenidən qurulur.

İyunun 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov aparılan işlərlə maraqlanmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov məlumat vermişdir ki, bu günədək 14 min 890 metr uzunluğunda kollektor lildən təmizlənmiş, 6 min 550 metr selötürücü kanal bərpa olunmuş, 350 metr uzunluğunda yeni kanal çəkilmişdir. Xanlıqlar kəndində 1310 metr uzunluğunda selötürücü kanala beton üzlüklər qoyulmuşdur. Hazırda 870 metr məsafədə işlər davam etdirilir. Selötürücü beton kanalların üzərində 720 millimetrlik borularla 24 su keçidi qoyulmuşdur. Bu işlər başa çatdırıldıqdan sonra Xanlıqlar və Püsyan kəndlərində torpaqların şoranlaşmasının qarşısı alınacaqdır.

Ali Məclisin Sədri yaşayış məntəqələrinin və torpaq sahələrinin sel sularından qorunması istiqamətində həyata keçirilən tədbirlərin muxtar respublikanın digər ərazilərində də davam etdirilməsinin vacibliyini vurğulamışdır.

## Xanlıqlar-Püsyan-Qıvraq avtomobil yolu yenidən qurulur



Müasir və rahat yol şəbəkələrinin yaradılması istiqamətində həyata keçirilən tədbirlər Şərur və Kəngərli rayonlarını da əhatə etmişdir. Bu gün hər iki rayonun yaşayış məntəqələrində avtomobil yolları yenidən qurulur, nəqliyyatın və insanların təhlükəsiz hərəkəti təmin edilir. Xanlıqlar-Püsyan-Qıvraq avtomobil yolunda aparılan tikinti işləri də sakinlərin rahatlığını təmin edəcəkdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolun texniki göstəriciləri və aparılan tikinti işləri ilə maraqlanmışdır.

Bildirilmişdir ki, ümumi uzunluğu 16 kilometr olan avtomobil yolunda torpaq işləri başa çatdırılmışdır. Yolun üzərində 29 su keçidi, 10 selötürücü tikilmiş, yol yatağı genişləndirilərək 9 metrə çatdırılmışdır. Tikinti işləri aparılarkən lazımi mühəndis-texniki tələblər nəzərə alınmış, yol asfalt verilməsi üçün hazır vəziyyətə gətirilmişdir.

Ali Məclisin Sədri tikinti işlərində və asfalt örtük salınmasında keyfiyyət amilinə diqqət yetirilməsinin vacibliyini vurğulamışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Heydər Əliyev Muzeyində növbəti açıq dərs

***Dünən Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Naxçıvan Musiqi Kolleci tələbələrinin iştirakı ilə açıq dərs keçilib. Əvvəlcə kollecin tələbələri muzeydə ümummilli lider Heydər Əliyevin həyatını və siyasi fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar. Sonra keçilən açıq dərsdə muzeyin direktoru Ramil Orucəliyev “Ümummilli lider Heydər Əliyev və Azərbaycanın qurtuluşu” mövzusunda danışıb. Bildirib ki, ölkəmizə rəhbərliyinin hər iki dövründə dahi şəxsiyyətin Vətənimiz qarşısındakı misilsiz xidmətləri Azərbaycanın müstəqilliyini təmin etməklə bərabər, həm də onun müasir inkişafını şərtləndirib.***

Qeyd olunub ki, görkəmli dövlət xadimi Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi Azərbaycanın müstəqilliyinin əldə edilməsi, möhkəmləndirilməsi və inkişaf etdirilməsi baxımından çox mühüm bir mərhələ təşkil edir. Məhz həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində dövlət rəmzlərimiz haqqında qərar qəbul edilib, Naxçıvan Muxtar Respublikasının adından “Sovet Sosialist” sözləri çıxarılıb, muxtar respublikanın təhlükəsizliyinin təmin olunması üçün mühüm addımlar atılıb. Eyni zamanda qonşu Türkiyə və İranla ikitərəfli əlaqələrin təməli qoyulub.

Vurğulanıb ki, xalqın tələbi, ölkədə yaranmış böhranlı şərait, ozamankı rəhbərlərin siyasi savadsızlığı və səriştəsizliyi üzündən yaranmış hakimiyyətsizlik, torpaqlarımızın bir hissəsinin işğal olunması, ölkəmizin müstəqilliyi üçün yaranmış real təhlükə 1993-cü ilin 15 iyununda görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıtmasını zəruri edib. Beləliklə, 15 iyun xalqımızın tarixinə Milli Qurtuluş Günü kimi daxil olub.

Bildirilib ki, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaranıb, elmi əsaslara söykənən müstəqil dövlət quruculuğu prosesinə start verilib. Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsində 1994-cü ilin mayında Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olunub, ölkəmizin milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılmasına başlanılıb. Eyni zamanda həmin ilin sentyabrında müstəqil Azərbaycanın iqtisadi inkişafında mühüm rol oynayan “Əsrin müqaviləsi” imzalanıb. Bundan sonra tarix üçün çox qısa bir dövrdə Azərbaycan sürətlə inkişaf edərək dünya dövlətləri sırasında öz layiqli yerini tutub.

Tələbələrin diqqətinə çatdırılıb ki, bu gün Azərbaycan ulu öndər Heydər Əliyevin yolu ilə inamla irəliləyir. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə uğurlar qazanılır. Blokada şəraitində yaşamasına baxmayaraq, Naxçıvan Muxtar Respublikası sürətlə inkişaf edir, şəhər, qəsəbə və kəndlər yenidən qurulur. Ötən dövr ərzində muxtar respublikanın müdafiə qabiliyyəti gücləndirilib, makroiqtisadi sabitlik bərqərar olunub, iqtisadi inkişafa təkan verilib, əhalinin yaşayış səviyyəsi yaxşılaşdırılıb. Bütün bunlar ulu öndər Heydər Əliyev yoluna sədaqətin və Milli Qurtuluşdan başlanan intibahın bəhrələridir.

Qeyd edək ki, açıq dərs Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən təşkil olunmuşdu.

**Səbuhi HƏSƏNOV**

*20 iyun Qaz təsərrüfatı işçilərinin peşə bayramıdır*

# Muxtar respublikanın mavi yanacaqla təminatı ilbəil yaxşılaşdırılır

***Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 12 iyun tarixli Sərəncamına əsasən, hər il iyunun 20-si “Qaz təsərrüfatı işçilərinin peşə bayramı günü” kimi qeyd olunur.***

Ölkəmizdə enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində tədbirlərə ötən əsrin 70-ci illərindən başlanmışdır. Ulu öndər Heydər Əliyev tərəfindən bu sahənin inkişafı ilə bağlı mühüm qərarlar qəbul edilmiş, yaşayış məntəqələrinin qazlaşdırılması istiqamətində kompleks tədbirlər görülmüşdür.

1980-ci ildə Naxçıvan Muxtar Respublikasına yüksəktəzyiqli qaz xətti çəkilmiş, yaşayış məntəqələrinin 52 faizi mavi yanacaqla təmin edilmişdir. Lakin ötən əsrin 90-cı illərində Ermənistanın işğalçılıq siyasəti nəticəsində muxtar respublika blokada vəziyyətinə düşmüş, bütün kommunikasiya xətləri kəsilmiş, o cümlədən qazın ötürülməsi dayandırılmışdı. Uzun fasilədən sonra, 2005-ci ildə Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi bərpa edilmiş və iki il ərzində muxtar respublikada qazlaşdırma prosesi tam başa çatdırılmışdır.

Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında qaz təsərrüfatının mühüm rolu vardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə 2005-ci ildə “Naxçıvanqaz” Məhdud Məsuliyyətli Cəmiyyəti, 2010-cu ildə isə “Naxçıvanqaz” İstehsalat Birliyi yaradılmışdır. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublikanın bütün yaşayış məntəqələri və istehsal müəssisələri fasiləsiz olaraq təbii qazla təmin edilir.

Muxtar respublikada qaz təsərrüfatının inkişafı daim diqqətdə saxlanılır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq 2013-cü ildə 27 kilometr uzunluğunda Naxçıvan-Şahbuz ortatəzyiqli qaz xətti istifadəyə verilmişdir. Müasir texniki tələblər səviyyəsində inşa edilən kəmər Babək rayonunda 8700, Şahbuz rayonunda isə 4500-dən artıq abonentin davamlı təbii qazla təmin olunmasına xidmət edir.

Bundan başqa, uzunluğu 81,6 kilometr olan Naxçıvan-Sədərək magistral qaz kəməri 8 millimetr qalınlıqda 558,8 millimetr diametrli izolyasiyalı borularla yenidən çəkilmişdir. Tikintisi yüksək keyfiyyətlə və bütün texniki normalar nəzərə alınmaqla həyata keçirilən kəmərdə katod qorumasına nəzarət etmək üçün 107 yerdə ölçmə dirəyi, qazpaylayıcı stansiya və 2 kran meydançası quraşdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev muxtar respublikanın enerji təhlükəsizliyi sahəsində görülən işləri yüksək qiymətləndirərək demişdir: ***“Naxçıvanda enerji təhlükəsizliyi məsələləri öz həllini tam şəkildə tapıbdır. Bu da çox sevindirici haldır. Bu gün Naxçıvan 100 faiz səviyyəsində qazlaşdırılıbdır. Bütün yaşayış məntəqələrində təbii qaz vardır”.***

“Naxçıvanqaz” İstehsalat Birliyi tərəfindən təbii qaz təchizatının yaxşılaşdırılması və etibarlılığının artırılması istiqamətində ardıcıl tədbirlər görülür. İstehlakçıların fasiləsiz və təhlükəsiz mavi yanacaqla təminatını diqqət mərkəzində saxlayan birliyin kollektivi qarşıda duran vəzifələri uğurla yerinə yetirir. Muxtar respublikada həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri ilə əlaqədar olaraq müvafiq sosial obyektlərin, inzibati binaların qaz təchizatı yenidən qurulur. Birliyin şəhər, rayon Qaz İstismarı idarələrinin qəza dispetçer xidmətləri istehlakçılardan daxil olmuş çağırışlara uyğun vaxtında tədbirlər görür, qəzaların qarşısı alınır, mavi yanacağın fasiləsiz nəqli təmin edilir.

Muxtar respublika ərazisində təbii qazdan səmərəli istifadəni təmin etmək məqsədilə təzyiqin normalara uyğun saxlanılması üzrə gündüz və gecə texnoloji rejimləri yaradılmış və sərfiyyat qeydiyyatının aparılması ciddi nəzarətə götürülmüşdür. Avtomat qazpaylayıcı stansiyalarda avadanlıqlara texniki xidmət işləri qrafik üzrə həyata keçirilmiş, cari təmir işləri görülmüş, nasazlıqlar aradan qaldırılmışdır. Həmçinin maşın-mexanizmlər, qaynaq və digər avadanlıqların texniki vəziyyəti yoxlanılmış, çətin şəraitdə etibarlı istismar üçün hazır vəziyyətə gətirilmişdir. Mütəmadi olaraq yeraltı xətlərdə korroziyaya uğrayan hissələr yeni borularla əvəz olunmuş, yeraltı yüksək və ortatəzyiqli magistral qaz kəmərlərinin üzərində quraşdırılmış katod elektrokimyəvi mühafizə qurğularına nəzarət olunmuş, xətlərdəki potensial fərqi ölçülərək nəzarətdə saxlanılmışdır.

Kadr potensialının artırılması, qaz istismarı sahəsində çalışanların ixtisas dərəcəsi və peşəkarlıq səviyyəsinin yüksəldilməsi də diqqətdə saxlanılır. Naxçıvan Regional Peşə Tədris Mərkəzində “Qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər” peşə kursları yaradılmış və şəhər, rayon Qaz İstismarı idarələrinin işçiləri müntəzəm qaydada kurslara cəlb olunmuşlar.

Təbii qazdan qanunsuz istifadəyə qarşı mübarizə tədbirləri həm sakinlərin təhlükəsiz yaşayışının, həm də fasiləsiz enerji təchizatının təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. Ötən dövr ərzində təbii qazdan səmərəli istifadə olunması, qaz sobalarına və qızdırıcı cihazlara nəzarət edilməsi və qaz sayğaclarına müdaxilələrin aradan qaldırılması məqsədilə reydlər davam etdirilmişdir. Muxtar respublikada qaz təsərrüfatında infrastrukturun təkmilləşdirilməsi məsələləri də daim diqqət mərkəzində saxlanılır. Bu tədbirlər çərçivəsində aşağıtəzyiqli qazdan istifadə edən istehlak obyektlərində “Smart-kart” tipli elektron qaz sayğaclarının quraşdırılmasına başlanılmışdır.

Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verir. Artıq muxtar respublikada təbii qazla işləyən elektrik stansiyaları fəaliyyət göstərir. Muxtar respublikanın təbii qazla davamlı və keyfiyyətli təminatı təbiətin qorunmasında və ekosistemin zənginləşdirilməsində də əhəmiyyətli rola malikdir.

Muxtar respublikanın qaz təsərrüfatında idarəetmə sisteminin daha da təkmilləşdirilməsi, itkilərin azaldılması yolu ilə səmərəliliyin artırılması, qazın nəqli və paylanmasında operativliyin təmin edilməsi, istismar və texniki təhlükəsizliyə nəzarətin gücləndirilməsi istehlakçıların təbii qazla etibarlı təminatına şərait yaratmışdır. Təbii qazdan təhlükəsiz və səmərəli istifadə olunması məqsədilə abonentlərin maarifləndirilməsinə xüsusi diqqət yetirilir, baş verə biləcək bədbəxt hadisələrin qarşısının alınması üçün mütəmadi olaraq iş aparılır. Qaz istismarı idarələrindəki qəza dispetçer xidmətlərinin “104” nömrəli qaynar xətti 24 saat istehlakçıların müraciətlərini qəbul edir.

***Qaz təsərrüfatı işçiləri yaradılan şəraitdən səmərəli istifadə edərək bundan sonra da muxtar respublikada enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə öz töhfəsini verəcək, abonentlərin təbii qazla fasiləsiz təminatı üçün səylə çalışacaqlar.***

**“Naxçıvanqaz” İstehsalat Birliyinin mətbuat xidməti**

# Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı ilə bağlı tədbir keçirilib

*Dünən Sədərək Rayon İcra Hakimiyyətində vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı ilə bağlı tədbir keçirilib. Tədbiri Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov açıb.*

Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rayon və şəhər qeydiyyat şöbələri ilə yanaşı, yerli inzibati ərazi dairəsi üzrə nümayəndəliklər tərəfindən də doğumun, nikahın bağlanmasının və ölümün qeydiyyatı aparılır. Ötən dövr ərzində muxtar respublikanın bütün rayonlarında inzibati ərazi dairəsi üzrə nümayəndəliklər üçün seminarlar təşkil edilib və onlar müvafiq normativ-hüquqi aktlardan çıxarışlarla təmin ediliblər. İnzibati ərazi dairəsi üzrə nümayəndəliklər tərəfindən doğum, nikah və ölümün qeydiyyatının aparılması üçün müvafiq metodik köməklik göstərilməsi və hüquqi maarifləndirmə tədbirlərinin həyata keçirilməsi nazirliyin daim diqqətində saxlanılıb.

Qeyd olunub ki, Sədərək rayonunda doğumun, nikahın və ölümün qeydiyyatı iki inzibati ərazi dairəsi üzrə nümayəndəlikdə rəsmiləşdirilir. Hüquqi maarifləndirmə tədbirləri olaraq 2009-2014-cü illər ərzində Sədərək rayonunda inzibati ərazi dairəsi üzrə nümayəndəliklər üçün 16 dəfə seminar təşkil olunub. Nazirlik tərəfindən inzibati ərazi dairəsi üzrə nümayəndəliklər müvafiq reyestr, akt qeydləri və şəhadətnamələrlə vaxtında təmin ediliblər. Sədərək rayonunun inzibati ərazi dairəsi üzrə nümayəndəliklərində vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı vəziyyətinin öyrənilməsi məqsədilə 2009-2014-cü illər ərzində rayon İcra Hakimiyyəti ilə birlikdə 12 dəfə yoxlama keçirilib və aşkar olunan nöqsanların aradan qaldırılması üçün inzibati ərazi dairəsi üzrə nümayəndəliklərə hərtərəfli metodik köməklik göstərilib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində muxtar respublikanın bütün rayonlarında inzibati ərazi dairəsi üzrə nümayəndəliklər üçün yeni inzibati binalar tikilib və müasir standartlara uyğun iş şəraiti yaradılıb. Məhz bu diqqət və qayğı nəticəsində Sədərək rayonunun inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri də tamamilə müasir inzibati bina və iş şəraiti ilə təmin olunublar. Yaradılan şərait bu qurumların üzərinə mühüm vəzifələr qoyur.

Vurğulanıb ki, hər bir inzibati ərazi dairəsi üzrə nümayəndəlik fəaliyyətini “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikası Ailə Məcəlləsinin, notariat haqqında qanunun və kargüzarlıq qaydalarını müəyyən edən təlimatın tələblərinə uyğun qurmalı və vətəndaşlıq vəziyyəti aktları qeydə alınmasına görə dövlət rüsumu ödənildikdən sonra müvafiq əməliyyatı rəsmiləşdirməlidir. Xüsusilə də nikah qeydiyyatı zamanı müraciət etmiş şəxslərin iştirakı təmin edilməlidir.

Tədbirə Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov yekun vuraraq rayonda dövlət qurumları üçün yaradılan müasir şəraitin müqabilində inzibati ərazi dairəsi üzrə nümayəndələrdən nümunəvi iş tələb olunduğunu bildirib, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı zamanı qanunvericiliyin tələblərinə əməl olunmasına xüsusi diqqət göstərilməsinin vacibliyini vurğulayıb.

# Vergi orqanlarına işə qəbulla bağlı növbəti test imtahanı

İyunun 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada Naxçıvan Muxtar Respublikasının vergi orqanlarında işləmək istəyənlər üçün test imtahanı keçirilib. Müsabiqədə iştirak etmək üçün sənəd təqdim etmiş 50 namizəddən 48-i test imtahanında iştirak edib.

İmtahanda namizədlərə ixtisas üzrə 90, məntiqi təfəkkürün yoxlanılması üzrə 10 sual olmaqla, 100 sual təqdim edilib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin əməkdaşları imtahanda müşahidəçi kimi iştirak ediblər. İmtahanlar şəffaflıq və obyektivlik şəraitində keçirilib, namizədlər öz bilik və bacarıqlarını sərbəst şəkildə nümayiş etdiriblər.

İmtahan bitdikdən dərhal sonra namizədlərə test imtahanının nəticəsi haqqında arayış təqdim olunub. Test imtahanından keçid balını toplamış namizədlər növbəti mərhələdə iştirak etmək hüququ qazanıblar.

**Xəbərlər şöbəsi**

## Muxtar respublikada xalq teatrlarının festivalı keçirilir



*Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Sərəncamına uyğun olaraq, xalq teatrlarının festivalına start verilib. Festivalın ilk günü Babək Rayon Xalq Teatrı görkəmli dramaturqumuz Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" tamaşasını göstərib.*

Tamaşanın nümayişindən əvvəl Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm naziri Sarvan İbrahimov çıxış edərək teatrsevərləri festival münasibətilə təbrik etdi. Azərbaycan teatr sənətinin və xalq teatrının inkişafı tarixindən danışan nazir xalqımızın yaratdığı qədim xalq oyun və meydan tamaşalarından geniş söhbət açdı. Bildirdi ki, bu tamaşalar xalq yaradıcılığımızın, folklorumuzun qədim və zəngin ənənələrini yaşadır. Muxtar respublikamızda xalq yaradıcılığına göstərilən qayğı və diqqət öz bəhrəsini verməkdədir.

Nazir bildirdi ki, xalq teatrlarının və dram dərnəklərinin fəaliyyətinin canlandırılmasında, peşəkar teatrlara yeni istedadlı yaradıcı qüvvələrin cəlb edilməsində, onların yaradıcılıq qabiliyyətinin üzə çıxarılmasında bu cür festivalların da mühüm əhəmiyyəti vardır.

Sonra Babək Rayon Xalq Teatrı Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" tamaşasını təqdim etdi. Babək Rayon Xalq Teatrı 2009-cu ildə yaradılsa da, muxtar respublikanın tanınmış kollektivlərindəndir. Bu illərdə xalq teatrının hazırladığı " Ezop", "Yollara iz düşür", " İkinci səs", " Şeyx Rəhmətullah", "Məhəbbət nişanəsi", "Solğun çiçəklər", "Durna" və başqa tamaşalar ictimaiyyət tərəfindən maraqla qarşılanıb.

Görkəmli dramaturq Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" komediyasının quruluşçu rejissoru Yusif Əliyev, tərtibatçı rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əli Səfərli, musiqi tərtibatçısı Səyyad Məmmədovdur.

Peşəkar teatrlarımız tərəfindən dəfələrlə səhnəyə qoyulan bu komediyanın mövzusu XIX əsrin 70-90-cı illərində Azərbaycan tacirlərinin həyatından götürülüb. Pula hərisliyi ifşa edən, caniliyin hökm sürdüyü mühiti tənqid edən komediya gülüş doğuran tip və obrazlarla zəngindir. Tamaşaçı bu surətlərin komik situasiyalara düşməsinin şahidi olur. Hacı Qənbər, Hacı Salman, Molla Şəfi və başqa obrazlar daha çox gülüş hədəfinə çevrilirlər. Tamaşadakı qadın obrazları – Yetər, Dilbər, Cəvahir o dövrdəki Azərbaycan qadınlarının həyatını əks etdirir. Bu və başqa obrazların canlandırılmasında aktyorlar Yusif Əliyev, Akif Əsədov, İsmayıl Qurbanov, Firdovsi Səfərov, Kənan Feyzullayev, Səbinə Corayeva, Stella Babayeva, Şölə Novruzbəyli maraqlı ifa tərzi ilə yadda qalırlar. Tamaşaçı rolların canlı və təbiiliyinə inanmaqla dövrün mənzərəsinin səhnə həllinin şahidi olur.

Xalq teatrlarından Şərur Rayon Xalq Teatrının hazırladığı "Yuxu" tamaşası iyunun 25-də göstəriləcəkdir.

**Əli RZAYEV**

***Xəbər verdiyimiz kimi, mayın 30-da Bakı şəhərində "Bizim sahibkarlıq fəaliyyətimiz" (Enactus) beynəlxalq proqramı üzrə X milli yarış keçirilmişdir. Həmin yarışda "Naxçıvan" Universitetinin "Enactus" komandası vitse-çempion adına layiq görülmüşdür.***

## Qaliblər mükafatlandırılıb



"Naxçıvan" Universitetində vitse-çempion adını qazanmış komandanın universitet mükafatlandırılması mərasimi keçirilmişdir. Tədbiri ali təhsil ocağının tədris işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent İbrahim Kazımbəyli açaraq ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda elm və təhsilin inkişafına göstərilən qayğıdan danışmış, bu uğurun istedadlı gənclərə göstərilən dövlət qayğısı sayəsində qazanıldığını diqqətə çatdırmışdır.

Universitetin "Enactus" komandasının rəhbəri, İdarəetmə fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev beynəlxalq proqram üzrə X milli yarış barədə danışmışdır. Bildirilmişdir ki, "Naxçıvan" Universitetinin komandası iki layihə ilə çempionata qatılmışdı. Layihələrdən birincisi qədim xalq sənətimiz olan keçəçilik sənətinin təbliği və yaşadılmasına xidmət edən "Güzəm", digəri isə gözdən əlil vətəndaşlarımızın və bölgəmizə gələn turistlərin rahat hərəkətini tənzimləyən "Bələdçim " layihəsi olmuşdur. Azərbaycan ali məktəblərinin təqdim etdikləri layihələr içərisində "Ən yaxşı sosial layihə" üzrə "Naxçıvan" Universitetinin "Bələdçim" layihəsi nominasiyanın qalibi adını qazanmışdır.

Tələbələr göstərilən qayğıya, onlar üçün yaradılmış şəraitə görə minnətdarlıqlarını bildirmişlər.

Sonra komandanın kapitanına və komanda üzvlərinə kubok, diplom və mükafatlar təqdim edilmişdir.

Məlumat üçün onu da qeyd edək ki, "Xəmsə" və "Nuh yurdu" bilik yarışlarında qalib olmuş tələbələr də mükafatlandırılmışlar.

**Nuray ƏSGƏROVA**

### Həkim məsləhəti

## Günvurma sağlamlıq üçün təhlükəlidir

***Bir neçə gündən sonra çox insanların sevdiyi və səbirsizliklə gözlədiyi yay fəsli başlayacaq. Bu, gərgin iş rejimindən azad olub yorğunluğu aradan qaldırmaq, stresdən uzaqlaşmaq üçün ideal mövsümdür. Ancaq yaddan çıxarmaq olmaz ki, istirahət fəsli sağlamlıq üçün təhlükə də törədə bilər. Bu amili Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkimi, anestezioloq-reanimatoloq Elsevər Ağəliyev bizimlə söhbətində xüsusi olaraq diqqətə çatdırdı.***

***– Elsevər həkim, yay mövsümü hələ başlamasa da, havalar yazın sonundan isti keçir, artıq günvurma hadisələri ilə bağlı məlumatlar var.***

– Bu il Naxçıvan Respublika Xəstəxanasına 3 nəfər günvurma ilə əlaqədar müraciət edib. Birgünlük müalicədən sonra onlar tam yaxşılaşma ilə evə buraxılıblar. Bu, əvvəlki illərə nisbətən xeyli yaxşı göstəricidir. Əhalinin sosial şəraitinin yaxşılaşdırılması, yaşıllıq zolaqlarının genişləndirilməsi, yeni parkların salınması və digər amillərlə yanaşı, əhali arasında aparılan səhiyyə maarifi işi günvurmanın azalmasında mühüm rol oynayır.

***– Günvurma hallarına daha çox kimlər məruz qalır?***

– İnsan orqanizminin müəyyən özünümüdafiə funksiyaları var ki, bu funksiya uşaqlarda tam formalaşmadığı, yaşlılarda isə artıq zəiflədiyi üçün onlar daha tez günvurmaya məruz qalırlar. Günvurma hadisəsi havanın hərarətinin insanın bədən temperaturundan yüksək olduğu hallarda, 15 dəqiqədən artıq birbaşa Günəş şüalarının təsiri altında qaldıqda baş verir. Əsasən, yaşlıların, uşaqların, bir sıra xroniki xəstəliklərdən əziyyət çəkənlərin, düzgün qidalanmayanların, artıq çəkili immun sistemi zəif olanların, açıq havada ticarət, tikinti və sair işlərlə məşğul insanların, hamilə qadınların günvurmaya məruzqalma ehtimalı daha çoxdur.

Həmin ehtimallar nəzərə alınaraq havanın hərarətinin yüksək olduğu günlərdə tikinti obyektlərində, açıq istehsal sahələrində insanların səhhəti diqqətdə saxlanılır, Günəş şüalarından qorunmaq üçün yaradılmış yerlərdə onlar çay və sərinləşdirici sularla təmin olunurlar. Bu, insan amilinin hər şeydən uca tutulduğunun parlaq göstəricisidir.

***– İnsanlar necə bilməlidirlər ki, onların səhhətində baş verən narahatlıq günvurma ilə əlaqədardır və hansı əlamətlər müşahidə edildikdə mütləq həkimə müraciət olunmalıdır?***

– Ümumiyyətlə, günvurmanın yüngül, orta və ağır olmaqla, 3 forması var. Yüngül formada xəstənin vəziyyəti kafi olur, onda baş ağrıları, başgicəllənməsi, ürəkbulanma, təngnəfəslik, bəbəyin genişlənməsi müşahidə edilir. Yüngül günvurmada xəstəyə ilkin yardım göstərildikdən, sərin yerə aparılaraq su verildikdən sonra o, özünə gəlir.

Orta dərəcəli günvurma zamanı kəskin başağrıları, başgicəllənmə, huşun müvəqqəti itməsi, qusma, təzyiqin yüksəlməsi, temperaturun 39-40 dərəcəyə çatması, qulaq batması baş verir. Ağır formalı günvurma zamanı isə təzyiq aşağı düşür, bədənin hərarəti 40 dərəcədən yuxarı qalxır, tənəffüs sistemi, mərkəzi sinir sisteminin fəaliyyəti pozulur. Nəticədə, xəstə komaya düşə, dünyasını dəyişə bilər.

Orta və ağır dərəcəli günvurma zamanı mütləq, ilk növbədə, təcili tibbi yardıma müraciət etmək lazımdır. Təcili tibbi yardım briqadası gələnə qədər isə zərərçəkənə ilkin yardım göstərilməlidir. Bunun üçün günvurmaya məruz qalan şəxsi sərin, kölgəli yerə aparmaq, arxası üstə uzatmaq, paltarının yaxasını açmaq, boyun, alın, döş, qoltuqaltı nahiyəsinə, əl və ayaq hissələrinə soyuq kompres qoymaq, ona sərin su vermək lazımdır. Təcili yardım gəldikdə isə xəstəyə ixtisaslaşmış yardım göstərilməli, lazım gələrsə, o, xəstəxanaya aparılmalıdır.

***– Bəs günvurmadan necə qorunmaq olar? Bununla bağlı hansı tövsiyələri verə bilərsiniz?***

– Havanın hərarətinin yüksək olduğu günlərdə insanlar səhər saat 11-dən 17-dək açıq havada gəzməməli, fiziki işlə məşğul olmamalıdırlar. İnsanlar bol maye (gün ərzində 4 litrdən artıq) qəbul etməli, evdən çıxarkən mütləq baş örtüyü örtməli, gözə eynək taxmalı, yüngül, əsasən, pambıq və kətan parçadan tikilmiş geyimlərə üstünlük verməlidirlər. Həm baş örtüyü, həm də geyimlərin açıqrəngli olması zəruridir. Çünki açıqrəngli paltarlar Günəş şüalarını əks etdirir, tündrəngli geyimlər isə Günəş şüalarını udaraq bədənin hərarətinin artmasına səbəb olur. Kip paltarlardan, sintetik parçadan tikilmiş geyimlərdən qaçmaq lazımdır.

Günün qızmar vaxtı çimərliyə də getmək doğru deyil. Günəşin ultrabənövşəyi şüalarının mənfi təsirindən qorunmaq üçün yay aylarında çimərliklərə səhər saat 11-ə qədər və axşam saat 17-dən sonra getmək olar.

***– Yay fəslində düzgün qidalanma da insanların sağlamlığı baxımından mühüm amildir...***

– Bütün mövsümlərdə, xüsusən də isti yay günlərində düzgün qidalanmanın sağlamlığa təsiri önəmlidir. Belə ki, həmin dövrdə yüngül qidalar qəbul edilməli, göyərti və meyvə-tərəvəzə, quş ətindən hazırlanmış yeməklərə, müxtəlif növ salatlara üstünlük verilməlidir. Vitamin mənbəyi sayılan çiyələk, qarpız, gilas, ərik, şaftalı kimi meyvələr də çox yeyilməlidir.

Qazlı içkilərlə müqayisədə təzə sıxılmış meyvə şirələrinə üstünlük vermək, süd, ayran, bitki və meyvə çayları içmək məqsədəuyğundur. Açıq satılan qidalardan və sulardan uzaq durmaq məsləhətdir.

**Müsahibəni apardı:**
**Hüseyn ƏSGƏROV**

## Avropa Oyunlarında iştirak edən həmyerlimiz 1/4 final mərhələsindədir



"Bakı-2015" ilk Avropa Oyunlarında boks yarışları davam edir. Dünən 6 çəkidə 1/8 mərhələsinin görüşləri keçirilib. Yığmamızın üzvü, Naxçıvan boksçusu Tayfur Əliyev 54 kiloqram çəkidə 1/8 finaldan mübarizəyə qoşulub. Onun rəqibi bundan öncəki mərhələdə ispaniyalı Dieqo Pereyra Ferrerini məğlub edən (3:0) Nikolae Andreiana olub. Tayfur Əliyev bu döyüşündə inamlı qələbə qazanıb. O, rəqibini məğlub etməkdə ciddi çətinlik çəkməyib – 3:0 (30:27; 29:28; 30:27). Tayfur Əliyev 1/4 finalda Fredrik Yensenlə (Danimarka) gücünü yoxlayacaq. Görüş iyunun 22-də olacaq.

**Ceyhun MƏMMƏDOV**

## Dördüncü Beynəlxalq Əl İşləri Sərgisində naxçıvanlı sənətkarlar da iştirak ediblər

10-15 iyun 2015-ci il tarixlərində İran İslam Respublikasının Mədəniyyət, Əl İşləri və Turizm Təşkilatının dəstəyi ilə İranın paytaxtı Tehran şəhərinin Beynəlxalq Sərgi Mərkəzində Dördüncü Beynəlxalq Əl İşləri Sərgisi keçirilib.

Sərgidə dünyanın müxtəlif yerlərindən gəlmiş 450-dən çox sənətkar öz əl işini nümayiş etdirib. Muxtar respublikadan isə taxta üzərində oyma sənəti üzrə Akif Həsənov və Afət Əhmədova sərgidə iştirak ediblər.

Sərgidə "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində fəaliyyət göstərən xalq yaradıcılığı emalatxanasının sənətkarlarının hazırladığı 25 adda taxta üzərində oyma sənətinə dair əl işləri nümayiş olunub. Muxtar respublika sənətkarlarının əl işləri sərgidə maraqla qarşılanıb, həmin işlər yerli kütləvi informasiya vasitələrində işıqlandırılıb.

***Naxçıvan Muxtar Respublikası***
***İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti bina 7, mənzil 7-də yaşayan Süleymanova Lətifə Mustafa qızının adına olan 01/11 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Şərur şəhər sakini Həsənov Nüsrət Firudin oğlunun adına olan 0001141 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 487